# Uşaq ədəbiyyatının aynası

Müstəqillik illərinə qədər və ondan sonra yaranan uşaq ədəbiyyatımızın inkişafında Zahid Xəlilin ölçüyəgəlməz zəhməti olub. O, XX əsrin 60-cı illərindən başlayaraq Azərbaycan uşaq ədəbiyyatının yeni istiqamətli inkişafına böyük töhfələr verib.

Onun poetik misralarında özünəməxsus olan deyim tərzi, uşaqlarda maraq doğuran söz hörgülərini qurmaq bacarığı, həm də poetik obrazlılıq yaratmaq məharəti diqqəti cəlb edir. Şair uşaqların yaş mərhələsini onların mənəvi aləmini, emosiyalarını, duyum tərzini aydınlıqla hiss edir, daxili aləmini, xarakter və psixoloji durumunu misralarda, poetik obrazlılıq sferasında təbii, olduğu kimi, real təsvir etməyi bacarır.

Z.Xəlilin şeir yaradıcılığından bəhs edən tədqiqatçı F.Əsgərli qeyd edir ki: “Bizim zənnimizcə, o qələm sahiblərinin bədii yaradıcılığına oxucu meyli güclü olur ki, həmin əsərlərin müəllifi zəngin xalq ədəbiyyatını və klassik ədəbiyyatı bütün incəliklərinə kimi dərk edə bilsin, onun bədii ruhunu qavrasın, poetik ahəngini ürəkdən duysun, həm də istedadı etibarı ilə ilahi vergili şair olsun. Bunun üçün, yalnız kiçik yaşlı oxucuların sirli dünyasına yol axtarıb tapmaq, bu dünyanın bədii, poetik kəşfinin təsviri həsrətində olan uşaqları fitri istedadın dili və yaradıcı xəyalın qüdrəti ilə danışdırmaq iqtidarında olan şair öz arxasınca apara bilər.



Bu baxımdan, şair Z.Xəlilin müstəqillik illərində qələmə aldığı “Ağ dəniz”, “Orxanın topu”, “Hamı yatır”, “Dəcəl bala”, “Dovşan və köpək”, “Dostlar”, “Orxan”, “İki dost” və sair bu kimi yumorlu poetik uşaq şeirlərində bənzətmələrdən, əzizləmələrdən, bədii xitablardan yerli-yerində istifadə etməklə məharətlə obrazlılıq yaratmağa nail olmuşdur. Şair uşaqların maraq doğuran sirli dünyasının ən incə və kövrək anlarını, onların fantastik xəyal aləminin bədii inikasını poetizmin gücü çərçivəsində daha dolğun yaratmaq məqsədilə uşaqların anlam səviyyəsinə uyğun gələn, çöhrələrində təbəssüm doğuran yumora bürünmüş atmacalı söz və ifadələrdən ustalıqla istifadə edə bilmişdir.

Müasir psixologiya elmindən bizə məlumdur ki, hər bir uşaq böyüdükcə atasının onun üzərinə qoyduğu, onun üçün arzuolunmaz olan bir sıra qadağalara məhəl qoymur, bunun nəticəsində də özü daxili hərəkətverici bir qüvvəyə çevrilir və tədricən yaş dövrü ötdükcə öz davranışının effektiv formasını zahirə çıxarmağa səy göstərir. Bu baxımdan, Z.Xəlilin “Orxan” adlı yumora bürünmüş poetik şeirində təbii yaş mərhələsini və bu mərhələyə xas olan dəcəllik dövrlərini keçirən kiçik yaşlı uşağın öz tükənməz enerjisini paylaşmaq üçün ciddi-cəhdlə etdiyi qeyri-adi hərəkətlər diqqətimizi cəlb edir.

*Söyləyin, görək kimdir*
*Çıxan zaman eşiyə?*
*Pişik dama dırmaşır,*
*Siçan girir deşiyə?!*
*Yenə haray-həşirdi,*
*Kimsə bərkdən dişləyib*
*Qulağını dovşanın!*
*Kimin işidir görən?*
*Kimin olar, Orxanın!*

Şair ayrı-ayrı yaş mərhələsində dəcəllik dövrünü keçirən müxtəlif xasiyyətə malik uşaqların obrazını yaratmaqla, həmçinin yenicə bu azad, geniş dünyaya göz açmış kövrək körpələrin də bizə təbii görünən xarakterik xüsusiyyətlərini, öz körpəlik illərinə xas olan qeyri-adi hərəkətlərini, zahiri görkəmlərini şirin poetik dillə təsvir edə bilmişdir. “Dəcəl bala” şeirinin yumorlu misralarında yaş dövrünü keçirən körpələrə məxsus xarakterik cizgiləri aydın şəkildə görmək mümkündür.

*Rəngbərəngdi paltarı,*
*İrandan, Çindən gəlib.*
*Əmziyini sındırıb,*
*Əlinin içindən gəlib.*
*Təzə çıxan dişinin*
*Hərəsi bir düyüdür.*
*İştahası pis deyil*
*Nə versələr üyüdür...*
*...Qardaşı Ələddinin*
*Qulaqları şeşədi,*
*Axşamacan ağlayır,*
*Bu da belə peşədi.*

Z.Xəlil “Dovşan və köpək” şeirində xarakterik xüsusiyyətlərinə görə bir-birinə zidd olan iki canlı varlığın hərəkətlərini məzəli şəkildə təsvir etmişdir.

*...Yumaq kimi büzüşüb*
*Dovşan kola girmişdi.*
*Boz köpək ona baxdı,*
*Elə bildi yemişdi.*
*Bir az sərçəyə hürdü,*
*Bir az kölgəyə hürdü.*
*Gəlib çardağın altda*
*Yenə yerinə girdi.*

Şairin “Dostlar” şeiri müxtəlif xarakterə malik olan uşaqların müəyyən yaş mərhələsində, yeniyetməlik dövründə bu yaşa məxsus təbii davranış hərəkətləri ilə oxucularda təbəssüm doğurması və yaşlı insanların təsəvvüründə də qınaq hədəfinə çevrilməsi, epik şeirin qəhrəmanı, dəcəlliyi ilə seçilən balaca Zahidin öz xarakterik xüsusiyyətləri haqqında lovğalıqla, fəxrlə söylədiyi və dilindən çıxan incə yumorlu poetik misralarda öz real əksini tapır.

*Mənim adım Zahiddi,*
*Onun adı Emindi.*
*Hər şeyimiz ortaqdı,*
*Bilmirik nə kimindi.*
*İkimiz də arığıq,*
*Bir sümüyük, bir dəri.*
*Onun da mənim kimi*
*Parıldayır gözləri.*

Pedaqogika üzrə elmlər doktoru, professor Fərahim Sadıqov Z.Xəlilin bu və ya digər tipli uşaq şeirlərini təhlilə cəlb edərək yazır: “Zahid Xəlilin yaradıcılığında, onun uşaqlar üçün yazdığı nəzm materiallarında tərbiyənin bütün tərkib hissələrini özündə ehtiva edən pedaqoji ideyalar vardır”.

Z.Xəlilin “Dünyanın ən balaca nağılları” (2002), “Orxan və dostları” (2004), “Yumru Yumaq və Qumru” (2011), “Günəşi qopartmaq istəyən ayılar” (2013), “Orxan, Vəfa və Bənək” (2015), “Çınqı” (2016) kitabları müstəqillik dövründə işıq üzü görüb.

Z.Xəlil həm də gözəl uşaq nasiridir. O, nəsr yaradıcılığına “Ballıca” (1981) əsəri ilə başlamışdır. Bundan sonra uşaqların maraq dairəsinə uyğun gələn və siyasi ideoloji prinsiplərdən uzaq olan “Çıraq nənənin nağılları” (1983), “Cırtdanla Azmanın yeni sərgüzəştləri”, “Salam, Cırtdan” (1986) (rus dilində) və sair nəsr əsərlərini qələmə alaraq hələ sovet dönəmində milli uşaq nəsrimizi yeni mövzu-ideya baxımından yeni istiqamətə yönəltməyi bacarmışdır. Müstəqillik illərində də öz üslubuna sadiq qalaraq bu istiqamətdə nəsr əsərləri qələmə almaqda bədii yaradıcılığını daha da zənginləşdirmiş, əvvəlki illərdə əldə etdiyi nəsr uğurlarının davamı olaraq oxucu marağı baxımından bir-birindən fərqli və olduqca maraqlı nəzərə çarpan əsərlərini qələmə almışdır.

Onun bu illərdə çap olunmuş “Dünyanın ən balaca nağılları” kitabındakı mövzu baxımından yeni, fəlsəfi baxımdan dərin məna kəsb edən ən lakonik nağıllar mövzu-ideya istiqamətlərinə görə öz müasirlərindən tamamilə seçilir. “Oxuyan koğuş”, “Çəpiş”, “Hamıya nağıl danışmaq istəyən qız”, “Çiyələk çayının dibindəki oğlan”, “Bütün dünyanı fəth edən padşahın tacı”, “Bədəlin şəhadət barmağı”, “Başqa planetə uçan çəyirtkə”, “Yalandan yaranmış adam”, “Qayaya çevrilmiş balina”, “Yeyimcillər ölkəsinin adamları”, “Stolüstü lampanın dərdi”, “Dünyanın ən ədalətli gözətçisi” və sair nəsr əsərləri milli və dünya folklor motivlərindən qida alsa da, sırf orijinal bədii nümunə təsiri bağışlayır. Olduqca dərin məna kəsb edən bu yığcam hekayələri oxuduqca Qrimm qardaşları, H.X.Andersen, Ş.Perro, R.Kiplinq, C.Rodari və digər dünya şöhrətli yazıçılarının uşaq nəsr yaradıcılığını xatırlayırsan. Uşaq anlamına uyğun gələn şirin yumor, bəzən mövcud cəmiyyətimizin bir sıra qüsurlarına yönəldilən kəskin sarkazm bu əsərlərin bədii dəyərini artırır.

Z.Xəlil milli uşaq nəsrinin ən çox dəyər daşıyan milli ənənələrini qoruyub saxlamaqla yanaşı, həmçinin tərbiyə sferasında mütərəqqi mahiyyət daşıyan Qərb uşaq ədəbiyyatının bədii çeşməsindən götürdüyü bircə damla ilə orijinal əsərlərini yaratmaq imkanlarını özündə saxlamağa nail olmuş, öz müasirlərinə əsl nümunə göstərmişdir. Bu nəsr əsərlərinin qaynaqlarının bir ucu istedadlı qələm sahiblərinin yaratdığı Qərb uşaq ədəbiyyatına gedib çıxsa da, onun yaratdığı müxtəlif səpgili xarakter-psixologiyaya malik olan bu və ya digər fərqli uşaq obrazları milli keyfiyyətləri özündə saxlaya bilmiş, bu da yazıçının istedadından xəbər verir. Onun nəsr əsərlərindəki peyzaj və ya mənzərə obrazlılığı, illüstrativ ecazkar təbiət təsvirləri, uşaqların anlam dərəcəsinə uyğun gələn bədii üslub çalarları daha qabarıq nəzərə çarpır.

Z.Xəlil obrazları yaradarkən yaradıcılıq fantaziyasına güc verir, təbiətin ən kiçik varlığını belə təsvir edərkən onu insan obrazı səviyyəsinə yüksəldir, çünki bu obrazların arxasında insan amilinin dayandığının fərqindədir. “İki ağcaqanad” adlı hekayədən bir parçanı alaq: “Dünyada iki ağcaqanad var idi. Birinin adı gözəllər gözəli Ağçiçək, o birinin adı igidlər igidi Ağkişi. Onlar lap xoşbəxt yaşayırdılar. Axşamlar səs-səsə verib oxuyurdular. Ağkişinin həm gözəl səsi vardı, həm də kamança çalırdı. Ağçiçək də pis oxumurdu. Elə axşam süfrəsi yığışdırılan kimi konsert başlayırdı. Əvvəl Ağçiçək bir zəngulə vururdu. İnsafla desək, hələ heç bir ağcaqanad onun kimi zəngulə vura bilməyib. Sonra Ağkişi başını kamançaya tərəf əyib, necə yanıqlı çalıb oxuyurdusa, qurbağalar bir anda öz sevimli mahnılarını kəsib, bu gözəl nəğməyə qulaq asırdılar”.

Zahid Xəlil ərsəyə gətirdiyi bədii yaradıcılığı ilə dünyaya pəncərə açmışdır, Azərbaycan uşaq ədəbiyyatını dünyanın bir çox ölkəsində tanıtmışdır. Mübaliğəsiz deyə bilərik ki, müasir Azərbaycan uşaq ədəbiyyatının dünya xalqlarına tanıdılmasında Zahid Xəlilin inkaredilməz xidmətləri vardır.

Yetmiş beş yaşı qeyd edilən Zahid Xəlil bu gün də yorulmadan, gənclik təravətilə yazıb-yaradır, milli uşaq ədəbiyyatının inkişafı naminə problemli məsələlərin tədqiqatını aparır, uşaqları cəlb edəcək mövzular üzərində düşünür.

**Şəfa Əhmədova**